***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 26-da Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı əvvəlcə Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində iki tunelin tikintisi ilə tanış olub, Kəlbəcərdə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışlarında iştirak edib. Ölkə rəhbəri, həmçinin Kəlbəcər-Laçın avtomobil yolunun inşası, Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında aparılan işlərin gedişi və Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə də maraqlanıb.***



*Vətən müharibəsində Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Qarabağ Zəfəri müdrik siyasətin, qətiyyətli iradənin məntiqi nəticəsi idi

Dövlətimizin başçısına Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi təqdim edilib və Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə də tanış olub.

Səfər çərçivəsində dövlətimizin başçısı Kəlbəcər şəhərinin baş planını nəzərdən keçirdikdən sonra rayonda İşğal və Zəfər muzeyləri kompleksinin, Rəqəmsal İdarəetmə Mərkəzinin, su istehsalı zavodunun, İstisu sanatoriyasının təməlini qoyub, tikilməkdə olan "Çıraq-1" kiçik su elektrik stansiyasında olub. Burada Azərbaycan Prezidentinə hazırda rayonda 5 yerdə inşa edilən elektrik stansiyaları barədə də məlumat verilib.

Dövlətimizin başçısının Kəlbəcərə səfəri zamanı rayonda komando qüvvələrinin hərbi hissəsinin açılışı mərasimi də keçirilib. Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsindən sonra da Azərbaycanda ordu quruculuğu uğurla davam etdirilib. Bununla bağlı komando qüvvələrinin hərbi hissələrinin yaradılması diqqət mərkəzində saxlanılıb. Altı ay bundan əvvəl, dekabrın 24-də ilk belə bir hərbi hissə azad edilmiş Hadrutda istifadəyə verilib. Prezident İlham Əliyevin iyunun 26-da Kəlbəcərə səfəri zamanı isə bu rayonda da komando qüvvələrinin hərbi hissəsi açılıb. Dövlətimizin başçısı bu münasibətlə keçirilən təntənəli mərasimdə çıxış edərək, deyib: "Bu gün Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsini açırıq. Bu, onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi sürətlə gedir və komando qüvvələri bütün digər silahlı birləşmələrlə bərabər ölkə qarşısında duran bütün vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir".

Dövlətimizin başçısı çıxışında bu gün Silahlı Qüvvələrimizlə öyündüyümüzü, fəxr etdiyimizi bildirib və Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra müzəffər xalq, qalib ölkə kimi Ordu Gününün qeyd edildiyini vurğulayıb.

Ölkə rəhbərinin nitqində vurğulandığı kimi, Prezident İlham Əliyev işğal illəri dövründə hərbçilərlə çoxsaylı görüşlərində - hərbi hissələrdə, səngərlərdə, Lələtəpə zirvəsində, hərbi paradlarda hər zaman deyirdi ki, Azərbaycan öz doğma, əzəli torpaqlarını tez-gec yağılardan xilas edəcək. Dövlətimizin başçısı, həmçinin bildirirdi ki, Ermənistan öz istəyi, xoşu ilə ərazilərimizdən çıxmasa, Azərbaycan Qarabağ məsələsini hərbi yolla gerçəkləşdirəcək...

O gün gəldi və qalib Azərbaycan Ordusu Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də Qarabağda Ermənistan silahlı qüvvələrinə qarşı uğurlu əks-hücum əməliyyatına başladı və nəticədə 44 gün ərzində düşmən həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verdi, 5 şəhər, 4 qəsəbə və 300-ə yaxın kənd işğaldan azad edildi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz zirvələri, habelə daha 5 adsız yüksəklik geri qaytarıldı.

2020-ci il noyabrın 10-da isə Azərbaycan, Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalandı. Bu bəyanata əsasən, dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana təhvil verildi. Bununla da ermənilərin "böyük Ermənistan" və "Dağlıq Qarabağ respublikası" xülyalarına birdəfəlik son qoyuldu.

Vətən müharibəsi Ermənistan və onun ədalətsiz havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu ədalətsiz siyasi-hərbi mübarizədən qalib çıxdı. Ordumuz uğurlu əməliyyatları ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində xalqımızın birliyi, qalib Prezidentinə və qəhrəman ordumuza inamı bu tarixi qələbəni reallaşdırdı, Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq etdi.

Prezident İlham Əliyev iyunun 26-da Kəlbəcərə səfəri zamanı komando qüvvələrinin hərbi hissəsinin təntənəli mərasimdə çıxış edərək, tarixi Zəfərimizlə bağlı deyib: "Biz Vətən müharibəsində xalqımızın böyüklüyünü göstərdik, yenilməz ruhumuzu göstərdik, güclü iradəni göstərdik və göstərdik ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi. Sadəcə olaraq, biz istəyirdik ki, bu məsələ sülh yolu ilə həll olunsun və uzun illər apardığımız danışıqların məqsədi məhz bu idi. Biz istəmirdik ki, qan tökülsün. Ümid edirdik ki, beynəlxalq aləm Ermənistana sanksiyalar tətbiq etməklə işğalçını məcbur edib bizim torpağımızdan çıxaracaq. Ancaq əfsuslar olsun ki, biz bunu görmədik və Azərbaycan xalqı bütün gücünü səfərbər edib tarixi şərəfli missiyanı yerinə yetirib".

Vətən müharibəsindən ötən müddətdə ölkəmiz siyasi şərtləri diktə edir, regionun geosiyasi mənzərəsini sürətlə dəyişir, Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan birgə bəyanata əsaslanaraq, bölgədə yeni təhlükəsizlik və əməkdaşlıq formatı yaradır. Respublikamız Qarabağ və Şərqi Zəngəzurda erməni faşizminin xaraba qoyduğu yaşayış sahələrini sürətlə bərpa edir, eyni zamanda, Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm layihələr reallaşdırır. Qısa müddət ərzində istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı və tikilməkdə olan Zəngilan və Laçın hava limanları da bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Ordu quruculuğu, ölkəmizin müdafiə qabiliyyəti və milli təhlükəsizliyinin daha da gücləndirilməsi Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən bu gün də qarşıya qoyulan əsas vəzifələrdən biridir. Buna görə hazırda Silahlı Qüvvələrimizin müasir hərbi texnika və silah-sursatla təchizatı, təhlükəsizliyin təmin olunması məqsədilə zəruri hərbi infrastrukturun yaradılması, hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin gerçəkləşdirilməsi daim diqqətdə saxlanılır.

Prezident İlham Əliyev təntənəli mərasimdəki çıxışında bununla bağlı bildirib ki, indi ordumuz bütün sərhəd boyunca yerləşib. Bütün sərhədlərdə hərbi hissələr yaradılıb. Müharibədən keçən ilyarım ərzində ordumuz daha da gücləndirilib, daha da müasir silahlarla təchiz edilib, sərhəd boyunca bütün əlverişli mövqelərə sahib olub.

Altı ay bundan əvvəl Hadrutda birinci komando hərbi hissəsinin fəaliyyətə başlaması, hazırda isə Kəlbəcərdə ikinci komando hərbi hissəsinin açılması da ordu quruculuğunun xüsusi diqqət mərkəzində saxlanılmasının bariz ifadəsidir.

Dövlətimizin başçısı Kəlbəcərdə komando qüvvələrinin hərbi hissəsinin açılışı mərasimindəki çıxışında bildirib ki, tarixi Zəfəri əldə etmək üçün işğal dövründə bütün diqqət güc toplamağa, ordunu möhkəmləndirməyə yönəldilmişdi. Çünki dünyada güc amilinin ön planda dayandığı yaxşı məlum idi. Beynəlxalq hüququn norma və prinsiplərinin işləmədiyi, beynəlxalq təşkilatların faktiki olaraq formal şəkildə fəaliyyət göstərdikləri də heç kəsə sirr deyildi. Həm də haqq-ədalət, beynəlxalq hüquq Azərbaycan tərəfində idi, çünki düşmən bizim əzəli əraziləri ələ keçirmişdi. Vurğulandığı kimi, beynəlxalq hüququn norma və prinsipləri işləmədiyindən işğalçıya "Azərbaycan torpaqlarından çıx!" deyilmirdi.

Bax, 30 illik işğal dövründə, belə bir ədalətsiz mühitin mövcud olduğu bir zamanda Azərbaycan qeyd edildiyi kimi, iqtisai, siyasi güc topladı, müstəqilliyini möhkəmləndirdi, beynəlxalq nüfuzunu artırdı. Bütün dünyaya Qarabağın Azərbaycanın tarixi ərazisinin bir hissəsi olduğunu və xalqımızın bu işğalla heç vaxt barışmayacağını sübut etd.

İkinci Qarabağ savaşında parlaq qələbəni şərtləndirən ən mühüm amillərdən biri də gənc nəslin vətənpərvərlik ruhunda böyüdülməsi idi. Bu məsələ hər zaman xüsusi diqqət mərkəzində saxlanılırdı. Gənc nəslin Vətənə, torpağa bağlılığı məqsədilə çoxsaylı tədbirlər həyata keçirilirdi. İkinci Qarabağ savaşında bunun nəticəsi özünü qabarıq büruzə verdi və bu, bütün dünyaya nümayiş etdirildi. Ölkə rəhbəri nitqində bu məqamla bağlı deyib: "Bu gün Azərbaycan gəncləri vətənpərvər gənclərdir, Vətənə bağlıdır və Vətən müharibəsi bunu bütün dünyaya göstərdi. Bizi Qələbəyə aparan ən başlıca amil milli ruh, ləyaqət, Vətənə sevgi idi və bunu gənc nəslin nümayəndələri, müstəqillik dövründə yetişən gənclər etdilər. Öz canlarını fəda edərək, ölümə gedərək bunu etdilər. Əziz şəhidlərimizin xatirəsi daim bizim qəlbimizdə yaşayacaq. Ona görə vətənpərvərlik, nizam-intizam, iqtisadi güc, siyasi mövqelər və əlbəttə ki, Silahlı Qüvvələrimizin müasir silahlarla təchiz edilməsi - bütün bu amillərin vəhdəti İkinci Qarabağ müharibəsinin nəticələrini şərtləndirdi. Cəmi 44 gün ərzində biz düşməni torpağımızdan qovduq, düşməni diz çökdürdük, onu məcbur etdik ki, ağ bayraq qaldırsın və Kəlbəcərdən məcbur olaraq çıxsın. Kəlbəcər bir güllə atılmadan azad edilmişdir. Biz onsuz da Kəlbəcəri azad edəcəydik. Çünki artıq Ermənistan ordusunun beli qırılmışdı, ancaq itkilər çox olacaqdı. Ona görə 44 gün ərzində Ermənistan ordusunu elə vəziyyətə saldıq ki, onların başqa yolu qalmamışdı".

Prezident İlham Əliyevin çıxışında vurğulandığı kimi, Vətən müharibəsinin gedişi bu gün müxtəlif ölkələrin ali məktəblərinin hərbi dərsliklərində öyrənilir. Çox çətin relyefi olan ərazinin, Şuşa kimi alınmaz qalanın cəmi 44 gün ərzində işğaldan azad olunması ancaq Azərbaycan əsgərinin ruhu, gücü hesabına gerçəkləşməsi dünyada maraqla qarşılanır.

Bütün bu cəhətlər- həm ruhən, həm fiziki cəhətdən, peşəkarlıq, döyüş qabiliyyəti, həm də Vətənə olan sevgi və məhəbbət nöqteyi-nəzərindən böyük xalq olduğumuz İkinci Qarabağ müharibəsi ilə bütün dünyaya nümayiş etdirildi.

Bax, elə buna görə xalqımız bu gün qalib xalq kimi tanınır, dünyanın ayrı-ayrı guşələrində məskunlaşan hər bir soydaşımız isə başını dik tutub qalib xalqın nümayəndəsi kimi yaşayır.

Beləliklə, dövlətimizin başçısının qeyd etdiyi kimi, xalqımız tarix, əcdadlarımızın ruhu və gələcək nəsillər qarşısında tarixi missiyanı uğurla, ləyaqətlə gerçəkləşdirdi.

Bu möhtəşəm Zəfər daim tariximizdə qalacaq. Azərbaycan bu tarixi Qələbə ilə daim fəxr edəcək.

Prezident İlham Əliyev çıxışında Ermənistanın revanşist qüvvələrinə də mesajlarını ünvanlayıb: "Müharibədən sonra bu gün Azərbaycan Ordusu daha güclüdür - həm təchizat nöqteyi-nəzərdən, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Ona görə biz bundan sonra da Ordumuzun inkişafı üçün ciddi addımlar atacağıq. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcək. Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək. Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın".

Qarabağın azad edilməsindən sonra Azərbaycanda dövlət quruculuğu, milli iqtisadi inkişaf və ictimai həyat yeni mərhələyə daxil olub. İndi respublikamızın regional güc mərkəzi olaraq mövqelərinin daha da möhkəmləndirilməsi, iqtisadiyyatının daha da gücləndirilməsi qarşıya əsas vəzifə kimi qoyulub. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tikinti-quruculuq, abadlıq tədbirləri geniş vüsət alıb, bütün səylər erməni faşizminin törətdiyi dağıntıların aradan qaldırılmasına yönəlib.

Ölkə rəhbəri nitqində işğaldan azad edilən ərazilərimizdə indi keskinliyi ilə diqqət çəkən barbarlığın erməni faşizminin təzahürü olduğunu bildirdi: "Onlar binalarımızı, məscidlərimizi, məktəblərimizi, şəhər və kəndlərimizi dağıdıblar. Bu sanatoriyanı da dağıdıblar. Amma bir müddətdən sonra burada yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılacaq. Mən hesab edirəm ki, bu, çox vacibdir. Çünki "İstisu" sanatoriyası və İstisu suyu bu bölgənin rəmzi, Kəlbəcərin təbii sərvəti idi. Bu gün biz - bu torpaqların sahibləri vaxtilə əlimizdən alınmış bütün sərvətləri özümüzə qaytarmışıq. Bütün şəhər və kəndlərimizi yenidən, sıfırdan bərpa edirik və edəcəyik, o cümlədən Kəlbəcər rayonunda, Laçın rayonunda böyük quruculuq işləri gedir".

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***